# Azərbaycan Respublikasının Təhsil Nazirliyi
# Mingəçevir Dövlət Universiteti

"TƏSDİQ EDİRƏM"

Mingəçevir Dövlət Universitetinin
rektoru, dosent Şahin Bayramov

10.07. 2020-ci il

*Mingəçevir Dövlət Universitetinin Elmi Şurasının 10 iyul 2020-ci il tarixli (pr.№13) 53 nömrəli qərarına əsasən qəbul edilmişdir.*

# Mingəçevir Dövlət Universitetinin
# Keyfiyyət təminat siyasəti
(2020-2024)

Mingəçevir Dövlət Universitetinin keyfiyyət sahəsində siyasəti universitetin idarə edilməsinin tərkib elementi olaraq təhsil fəaliyyətini planlaşdırır. Keyfiyyətin təmin olunmasına rəhbərlik Tədris şöbəsi olmaqla universitetin bütün struktur bölmələri, habelə müəllim-tələbə və tədris-köməkçi heyətinin, o cümlədən işəgötürənlər, əmək bazarının nümayəndələrinin və digər maraqlı tərəflərin iştirakı ilə həyata keçirilir. Keyfiyyət təminatı siyasəti universitetdə həyata keçirilən fəaliyyətlərin Azərbaycan Respublikasının "Təhsil haqqında" Qanununa, "Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi"nə, Boloniya təhsil prosesinin müddəalarına, "Avropa ali təhsil məkanında keyfiyyət təminatı üzrə standartlar və təlimatlar"a, (ESG) dövlətin bu sahədəki direktiv sənədlərinə və Azərbaycan Respublikasının Təhsil Nazirliyinin normativ-hüquqi sənədlərinə əsaslanır və keyfiyyət təminatı sistemini yaradlır. Milli və beynəlxalq səviyyədə dəyişiklikləri nəzərə alaraq Keyfiyyət təminatı siyasəti tendensiyalara uyğun mütəmadi olaraq yenilənir. Universitet rəhbərliyi Keyfiyyət siyasətinin səmərəli həyata keçirilməsini təmin edir və hər bir universitet əməkdaşının Keyfiyyət siyasəti ilə tanışlığı təmin olunmuşdur. Hər bir əməkdaş öz səlahiyyətləri çərçivəsində Keyfiyyət siyasətinin təmin edilməsinə şəxsi məsuliyyət daşıyır. Hər kəs başa düşməlidir ki, universitetin rifahı və işçilərin rifahın işin keyfiyyəti və müştəri məmnuniyyətinin səviyyəsindən asılıdır. Keyfiyyət siyasətinin əsas məqsədi Strateji İnkişaf Planın hədəflərinə nail olmağa dəstək verməkdir. Keyfiyyət siyasətinin əsas hədəfləri:

- müasir dövrün tələblərinə cavab verən kadr hazırlığını aparmaq;
- tədrisin keyfiyyətinin artırılması və universitetin elmi tədqiqat potensialının daha da inkişaf etdirmək;
- təhsil xidmətləri bazarında universitetin rəqabət mövqeyini möhkəmləndirmək;
- tədqiqat və innovasiya fəaliyyətini təkmilləşdirilmək;

- fəaliyyətin bütün sahələrinin keyfiyyətinin davamlı yaxşılaşdırılması əsasında maraqlı tərəflərin tələblərinə cavab vermək;
- təhsilin keyfiyyətinə dair tədris-metodiki və digər normativ sənədləri yaratmaq və təkmilləşdirmək;
- yeni təhsil texnologiyalarından istifadə üçün şəraiti təmin etmək;
- tələbəyönlü tədrisə doğru yönəlmək;
- müəllimlərin peşə keyfiyyətinin yüksəldilməsinə dəstək vermək;
- universitetlər arasında beynəlxalq təcrübəni əsas tutaraq beynəlxalq mübadilənin (tələbə, müəllim) inkişafında dəstək olmaq;
- kitabxana, məişət xidməti, tibbi xidmət və digər resurların beynəlxalq standartlara çatdırılmaq;
- bütün struktur bölmələrin fəaliyyətlərinin mütəmadi olaraq qiymətləndirilmək;
- özünün güclü və zəif tərəflərinin müəyyənləşdirilməsini, mövcud problemlərinin üzə çıxarılmasını, ehtiyacların müvafiq göstəricilər sistemi əsasında təhlil edilməsini və qiymətləndirilməsini təmin edən "Özünütəhlil hesabatını" dövri olaraq (yarımillik, illik) hazırlamaq;
- daxili keyfiyyət təminatı sisteminin işini (fəaliyyət planını) PİND (planlaşdırma, icra nəzarət, düzəlişlər et) mexanizmi vasitəsilə təmin etmək;
- universitetin bütün fəaliyyətləri haqqında (təhsil proqramları, proqramlardan gözlənilən təlim nəticələri, kvalifikasiyalar, təhsil, tədris və qiymətləndirmədə istifadə edilən prosedurlar, keçid balları, tələbələr üçün yaradılmış tədris imkanları, işlə təmin olunmuş məzunların sayı və s.) məlumatların cəmiyyət üçün əlçatan etmək;

Uzunmüddətli perspektivdə universitetin təhsil fəaliyyətində Keyfiyyət siyasətin həyata keçirilməsindən gözlənilən nəticələr:

- universitetdə keyfiyyət təminatı sisteminin formalaşdırılması;
- kadr hazırlığının keyfiyyətinin yüksəldilməsi;

- ilk növbədə əmək bazarında tələbat olan və peşəkar bacarıqlarını daim təkmilləşdirməyə qadir olan mütəxəssisin hazırlanmasına yönəlmiş təlim formasının yaradılması;
- universitetin vahid informasiya təhsil məkanının, o cümlədən texniki, informasiya infrastrukturunun yaradılması;
- təhsil fəaliyyətinin informasiya təminatı sisteminin formalaşdırılması;
- beynəlxalq əməkdaşlığın elmi-metodiki təminatı;
- yeni nəsil müəllimin formalaşması;
- tələbəyönlü açıq təhsil sisteminə keçmək;
- bütün proqram və formalarda mütəxəssislərin ən səmərəli hazırlanmasına səbəb olacaq elm, təcrübə və tədrisin birləşməsi;
- universitetin təhsil fəaliyyətinin keyfiyyətində maraqlı olan bütün tərəflərin tələblərinin dəyişməsi əsasında keyfiyyət siyasətinin sistemli şəkildə yenilənməsi və s.

Əmək bazarında universitet siyasətinin həyata keçirilməsindən gözlənilən nəticələr:

- “sənaye-universitet” əlaqələrinin genişləndirilməsi;
- universitetin məzunlarının öz ixtisasları üzrə işlə təmin olunmasının orta hesabla 10-15 faiz artması;
- məzunların peşəkarlıq səviyyəsinin artırılması və s.